# “ Hələlik gedirik üzü sabaha ...”

Hamlet İsaxanlının təzə çıxan "Dördlüklər" kitabı onun yaradıcılığında yeni bir yüksəlişdir. Yüksəldikcə həyatın nəbzi onun şeirlərində daha sərrast vurmağa başlayır. Hamlet İsaxanlı yaradıcılığının, o cümlədən yenicə çapdan çıxmış "Dördlüklər"in əsasını şairin insanlara, təbiətə, müasir proseslərə mütəfəkkiranə münasibəti təşkil edir. Şair bu yeni kitabında elə problemlərə toxunmuşdur ki, bunlar təkcə söz adamlarını, şair və yazıçıları deyil, bütün bəşə-riyyəti maraqlandırır və düşündürür. Burada müasir həyat, müasir insan, müasir zaman problembri mər-kəzi planda əks etdirilmişdir. Əlbəttə, dünya, zaman, ömür kimi məfhumların şərhi müxtəlif dövrlərdə obrazlı fıkrin mərkəzi problemi olmuşdur. Amma sohəat ondan gedir ki, problemlərin qoyuluşunda və bədii həllində şairin orijinallığı, hadisələrə müasirlik prizmasından doğru yanaşmaq iqtidarında olması özünü açıq-aydın büruzə verir. Hamlet İsaxanlı predmetin fəlsəfı-ictimai mahiyyətinə enməyi, təsvir, yaxud tərənnüm obyektinin arxasında gizlənən məzmunu göstərməyi üstün tutur. Sadəcə "filosofluq" etmir, fəlsəfi ümumiləşdirmələr təhlil predmetinin özünə, konkret həyat materialına əsaslanır:

**Dünya doğrudan da xeyli qocadır,**

**Fikirdən dərindir, sözdən ucadır.**

**Görüb bildiyimiz dünya deyil ki,**

**Dünya açılmayan bir pəncərədir.**

Hamlet İsaxanlının poeziyası onun xarakterinə çox oxşayır: təbii və məğrur, milli və ümumbəşəri. Daha doğrusu, Hamlet İsaxanlı şeiri, taleyi və şəxsiyyəti bütövlük təşkil edən şairlərdəndir. Onun poetik "mən"inin gücü təbiiliyində və əsilliyindədir. Bu poeziyada süni və qeyri-təbii heç nə yoxdur. Gerçəklikdən alınan süjet, ürəkdən axıb gələn poetik hiss, özünə məxsus fərdi ovqat poetik amala çevrilir.

**Dünyanı doldurub min fitnə-fəsad,**

**Yarəb, bu işlərə sən özün əl qat.**

**Bəşəri bədəndən, nəfsdən deyil,**

**Ruhdan, məhəbbətdən yoğurub yarat!**

Dördlük müasir şeirin tez-tez müraciət etdiyi formalardan olsa da, klassik şeirin rübai, bayatı, təcnis, qoşma, gəraylı ənənələri zəminində yaranmışdır. Hamlet İsaxanlının "Dördlüklər"ində toplanmış rübailər, bayatılar bugünkü şeir təcrübəmizin hadisəsi kimi müasir çalar kəsb etməklə yanaşı, həm də öz sadəliliyi, lakonikliyi, yetkinliyi ib diqqəti cəlb edir. Maraqlıdır ki, şair təbliğ və tərənnüm etdiyi fıkirləri quru, ritorik şəkildə yox, konkret hadisələrin bədii təsviri şəklində təqdim edir:

**Sevgini zarafat sayma, əziz dost!**

**Sevdiyin insandan doyma, əziz dost!**

**Güldən-gülə qonan kəpənək kimi**

**Hər gözün tutana uyma, əziz dost!**

Hamlet İsaxanlının "Dördlüklər"ində toplanmış rübai, bayatı və məcazlar ənənəvi motivlər üzərində intişar tapsa da, həm də ondan aydın şəkildə fərqlənir. Şairin yaratdığı dördlüklər öz ən yaxşı nümunələrində bayatı və rübai ənənəsinə sadiq qalır: buradakı müdrikin və aşiqin simasında klassik lirik "mən"in varisini tanımaq o qədər də çətin deyil. O da mənalı ömrün, ilhamla sevməyin, müdrik olmağın bugünkü dərslərini öyrədir və təbliğ edir. Lakin Hamlet İsaxanlmm dördlüklərində poetik təzad və fəlsəfı

paradoks fikir və hökmlərlə yanaşı, həm də həyati təsnifat və detallar arasındadır. Yer üzündəki bütün eybəcərliklərə naqisliklərə görə allahdan "mədəd" diləmək də konkret sosial mahiyyət kəsb edir:

**Dünyanı tutubdur dinsiz, imansız,**

**Yaşamaq ağırdır, həyat amansız.**

**Mədəd rəhim olan allaha qalıb,**

**Yaxşılar fağırdır, yamanlar qansız.**

Hamlet İsaxanlı dünya, tale, həyat, insan və təbiət haqqında öz poetik duyğular və düşüncələr aləmi olan şairdir. Xeyir və şər, işıq və zülmət, yalan və riya rəngləri onun poeziyasında qəribə bir harmoniya və vəhdət yaradır. Şairə görə, insan ömrü, onun dramatik mürəkkəbliyi elə bu rənglərdən ibarətdir. Şeirlərindəki sərbəst düşüncələrə daxili vəhdət verən bu fəlsəfi ideyaya şair insaın min il yaşamağa qoymayan səbəbləri də əlavə edir - özgə dərdinə həssaslıq, narahatlıq və cavabdehlik hissi. Lakin bu rənglərsiz ömüru də şair mənasız hesab edir.

**Yer, göy arasında ömür sürürəm,**
**Omür nədir? -Sevinc üstəgəl fəğan.**

"Dördlüklər" həm forması ilə həm də, dil ifadə xüsusiyyətləri ilə folklora, təbiətə doğmalığı əks etdirir. Hər dördlük özünü təbiətin bir parçası hesab edən şairin təbiilik qarşısında heyrətidir:

**Əyildim otlara, diz üstə çökdüm,**

**Güllərin ətrini içimə çəkdim.**

**Günəş də telini çəmənə səpdi,**

**Daha nə möcüzə istəyəcəkdim?!**

Digər tərəfdən, şair şeirdə sintaksisin, poetik leksikonun yeni imkanlarını üzə çıxarır, canlı danışıq, şikayət, dua, alqış poetikasının ünsürlərini dördlüyə gətirir.

**Şükür, yıxılmadım, ayaq üstəyəm**

**Ruhun fəziləti daha böyükmüş!**

Yaxud:

**Bəndənin gücü çatmaz,**
**Cəzanı Allah versin.**

Müasir poeziyamızda satirik şeirlər əsasən əruzda və daha çox Sabir poeziyasmm təsiri ilə yazılır. Lakin Hamlet İsaxanlının "Dördlüklər"indəki heca səpkili satirik şeirləri ictimai kəsəri etibarilə lirik şeirlərindən geri qalmır. Şairin istər lirik, istərsə də satirik şeirlərində incə bir yumor və kinayə hiss olunur. Onun bu tipli şeirlərində xalq satirasının poetik xüsusuyyətləri hiss olunmaqdadır:

**Kar, kor, amma kürkü baha,**

**Kirpi kürk yamamır daha.**

**Erkək, dişi - fərqi yoxdur,**

**Kirpi pul yığır sabaha.**

Yaxud:

**Qara niyyət, ağ ciyər,**
**Varlığı boş, ruhu şər-**
**Zəiflərə ağadır**
**Güclülərə - qul, nökər.**

Hamlet İsaxanlımn poetik təfəkkürünün for-malaşmasında müəyyən röl oynamış estetik amilbr onun hər bir şeirində hiss olunmaqdadır. Müraciət et-diyi janrın özünəməxsusluğu göstərir ki, şairin ilhamı milli ruh, milli kolorit və энэнэ üzərində intişar tap-mışdır. Ənənəvi formaya müasir məzmunun ifadəsi zamanı yeni bədii çalar aşılanır, fıkrin lakonik, yığ-caırı ifadəsi onun bir sıra misralarmı aforizmə çevirir: **"...Sus ki, bəzən Susmaq da insanm yaraşığıdır", "Can yanğısı sönən deyil, Gedən geri dönən deyil", "Hava, su kədər bilməz Kədər ürəkdə gəzər", Tə-zədən dərd paylama Dərdim özümə bəsdir", "Sev-gidə nə desən var Sevgidə qayda yoxdur"** və s.

Hamlet İsaxanlmın şeirbrində daxili bir niga-ranlıq, narahatlıq var. Bu da şairin fəal vətəndaş möv-qeyindən, həyata, dünyayahəssas münasibətindən irə-li gəlir. Onun şeirbrindəki giley, inciklik ford in məh-dud sızıltıları deyil. Aşağıdakı misralarm ruhunda ha-mıya tanış olan bir ovqat var:

**Kənd dursa da, ruh dəyişib**
**Qara zurna gözə dəymir;**
**Görən aşiq kimdən küsüb,**
**Saz sinədə dastan demir?**

Yaxud:

**Məsud etmir nur məni,**
**Kədərini boğur məni.**
**Tanrım, səndən ricam var:**
**Təzədən yoğur məni.**

Ümumiyyətlə, "Dördlüklər"də Hamlet İsaxanlı xalq dühasının yaratmış olduğu poetik xəzinənin incəliklərinə bələd bir şair olmaqla kifayətlənmir, həm də ondan yaradıcı şəkildə istifadə edib bəhrələnərək müasir poeziyamızın gözəl nümunələrini yaradır. Onun səyyar xəyalı şeir üfuqlərinin hansı səmtində süzsə də, hansı yüksəkliyə qalxsa da, axırda yenə Azərbaycana, Bakıya qayıdır, ilhamını bu doğma diyardan alır:

**Yaradan bizlərə pay yollayıbdır,**

**Hüsnünü tarixlər sığallayıbdır.**

**Gözəlin yaşını sormaq ayıbdır,**
**Həmişəcavansan, ey qədim Bakı!**

Hamlet İsaxanlı bu gün ömrünün müdriklik dövrünü yaşayır. Onun həyatı, yaradıcılığı bugünkü və gələcək nəslə etibarlı nümunədir. Alim-şairə poeziya qədər dərin mənalı, üzun ömür arzulayıram!

Dilbər Zeynalova,
filologiya elmləri namizədi